


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 68 (24.205)**

***18 aprel 2023-cü il, çərşənbə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 30 qəpik**


## Ağır atletika üzrə Avropa çempionu Cansu Bektaşa və Ağır atletika üzrə Avropa çempionatının gümüş medal sahibi Qamze Altuna

Əziz Cansu və Qamze,

İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qızıl və gümüş medallar qazanmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Sizin yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək dünya miqyasında Türkiyə bayrağını dalğalandırmağınız, İstiqlal Marşını səsləndirməyiniz bütün Azərbaycan xalqını sevindirdi.

Qələbələrinizi Azərbaycana həsr etdiyinizə görə Sizə xüsusi təşəkkür edirik. Bu, bir daha onu sübut etdi ki, Azərbaycan olmayan yerdə Türkiyə daim bizi təmsil edir və haqq işimizi dəstəkləyir. Bu, sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürüdür.

Biz Sizinlə fəxr edir, bundan sonra da yeni-yeni qələbələr diləyirik.

Hörmətlə,

**İlham Əliyev və Mehriban Əliyeva**

*Bakı şəhəri, 16 aprel 2023-cü il*

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Ümummilli Lider Heydər Əliyev ideyaları və müasir dövr” mövzusunda respublika konfransı keçirilib.*

Konfransdan öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyaraq Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət edilib. AMEA Naxçıvan Bölməsində təşkil edilən “Ümummilli Lider Heydər Əliyev – 100” adlı sərgiyə baxış olub.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransı giriş sözü ilə açaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan olunduğunu, bu barədə Tədbirlər Planının təsdiq edildiyini bildirib. Vurğulanıb ki, Ümummilli Liderin zəngin siyasi irsinin hərtərəfli öyrənilməsi məqsədilə keçirilən silsilə elmi-kütləvi tədbirlər ilin sonunadək davam etdiriləcək.

Konfransda “Azərbaycanla adı qoşa çəkilən Ümummilli Lider” mövzusunda məruzə edən akademik İsmayıl Hacıyev diqqətə çatdırıb ki, dahi Heydər Əliyev şəxsiyyəti dünyanın ən tanınmış siyasi xadimləri ilə eyni nüfuza malikdir. Təsadüfi deyil ki, dünya siyasətində həlledici rol oynamış liderlər Ulu Öndərin idarəçilik bacarığını, liderlik xüsusiyyətlərini təqdir etmişlər. Qeyd edilib ki, ölkəmizin dünya siyasət meydanında tanınması dahi rəhbərin yorulmaz və uzaqgörən fəaliyyətinin nəticəsidir. Ulu Öndərin adının Azərbaycanla qoşa çəkildiyini qeyd edən İsmayıl Hacıyev görkəmli dövlət xadiminin rəhbərliyi ilə qazanılan çoxsaylı nailiyyətlərdən söz açıb.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, tarix elmləri doktoru Eynulla Mədətli konfransda “Ümummilli Lider Heydər Əliyevin bir millət iki dövlət düsturu Azərbaycan-Türkiyə birliyinin yol xəritəsidir” mövzusunda məruzə edib. Alim Ulu Öndərin Türk dünyasına, xüsusilə Türkiyə ilə münasibətlərə xüsusi önəm vermişindən danışıb.

Məruzəçi Ümummilli Liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi qardaş Türkiyəyə ilk rəsmi səfərindən, “Ümid körpüsü”nün açılmasından, habelə sonralar ölkəyə rəhbərliyi zamanı etdiyi səfərlərdən və imzalanan mühüm əhəmiyyətə malik sənədlərdən söz açıb.



Eynulla Mədətli Ulu Öndər Heydər Əliyevin ***“Bir millət, iki dövlət”*** fikrinin mahiyyətindən, dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycanın xarici diplomatiyasının formalaşdığı dövrdə, eləcə də blokada vəziyyətində olan Naxçıvan əhalisinə Türkiyənin dəstəyindən danışıb. 2009-cu ildə imzalanan Naxçıvan Bəyannaməsini Heydər Əliyev ideyalarının uğurlu davamı kimi xarakterizə edib, erməni işğalçılarına qarşı haqq savaşımızda Türkiyənin dəstəyinin bu qardaşlığın davamı olduğunu bildirib.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev “Ümummilli Lider Heydər Əliyevin İpək Yolu strategiyası və Azərbaycan” məruzəsində dahi rəhbərin memarı olduğu İpək Yolu layihəsinin bu gün reallaşmış nəticələrindən danışıb, Zəngəzur dəhlizinin açılmasının Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyinə müsbət təsirlərini diqqətə çatdırıb.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev konfransda “Ümummilli Lider Heydər Əliyev və Türk dünyası” mövzusunda məruzə edib.

Məruzədə Türk xalqlarının birliyinə hər zaman xüsusi önəm verən Ulu Öndər Heydər Əliyevin milli ideallarımıza həmişə böyük hörmətlə yanaşdığını, türk yazılı abidələrinin qorunması və təbliği işinə diqqətindən bəhs olunub.

“Heydər Əliyevin milli irsimizin tədqiqinə qayğısı” mövzusunda məruzə edən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işinə diqqətindən, məsələ ilə bağlı görülən tədbirlərdən söz açıb.

Konfrans öz işini bölmə iclasları üzrə davam etdirib.

**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti**

* * *



*Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətində “Ulu Öndər Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü” mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva bildirib ki, “Heydər Əliyev İli” hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur. Görkəmli dövlət xadiminin Azərbaycanın müstəqilliyinin bərpası dönəmində və ona qədərki dövrdə bir insanın, şəxsiyyətin öz xalqı və dövləti üçün edə biləcəyi mümkün nə varsa, hamısını etməyin nümunəsini və örnəyini yaradıb. Bu baxımdan “Ulu Öndər Heydər Əliyev və Azərbaycan” mövzusu hər zaman tədqiqat obyekti olacaq, öyrəniləcək.

Vurğulanıb ki, dahi şəxsiyyət Heydər Əliyev tarixi və siyasi ənənələrə, milli-mənəvi və ümumbəşəri dəyərlərə xüsusi önəm verməklə yanaşı, yenilikçi, mütərəqqi baxışlara əsaslanan çox mühüm təşəbbüslər irəli sürüb, vacib addımlar atıb. Bu gün Ulu Öndərin şah əsəri və xalqımıza ən böyük mirası olan müasir, müstəqil Azərbaycan onun əbədiyaşar ideyaları əsasında möhtəşəm nailiyyətlərə imza ataraq zirvələr fəth edir. Prezident cənab İlham Əliyevin 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi “Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir”.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev və həmin universitetin kafedra müdiri, dosent Şamxal Məmmədov çıxış ediblər.

Sonda Ulu Öndər Heydər Əliyevin şərəfli həyat yolunu əks etdirən videomaterial nümayiş olunub.

**Aysel İSAZADƏ**
***Naxçıvan Dövlət Universitetinin IV kurs tələbəsi***

* * *



*“Heydər Əliyev İli” çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun zabitləri Heydər Əliyev Muzeyini ziyarət edərək dahi şəxsiyyətin həyatı və zəngin siyasi irsi ilə tanış olublar.*

Muzeyin direktoru Ramil Orucəliyev Ümummilli Liderin həyatı və ictimai-siyasi fəaliyyəti barədə hərbi qulluqçulara geniş məlumat verib. Bildirilib ki, ölkəmizdə dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da Ulu Öndər Heydər Əliyev misilsiz xidmətlər göstərib. Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü.

Bu gün ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan ölkəmizin qazandığı misilsiz nailiyyətlər Ulu Öndərin onilliklər ərzində gələcək inkişafı üçün formalaşdırdığı möhkəm təməllərdən güc alır. 44 günlük Vətən müharibəsindəki Şanlı Qələbəmiz də bu fikri bir daha təsdiqləyib.

Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı hərbi qulluqçular dahi rəhbərin zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumat əldə ediblər.

## Komitə sədrinin yeni müavini vəzifələrinin icrasına başlayıb

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə sədr müavini təyin olunub. Müvafiq sərəncamla bu vəzifəyə Nəbiyev Pərvin Yunis oğlu təyin edilib. O, kollektivə təqdim olunub və vəzifələrinin icrasına başlayıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini işləmiş Ruslan Kəngərli 2023-cü il fevralın 27-də imzalanan müvafiq sərəncamla tutduğu vəzifədən azad olunub.

**Xəbərlər şöbəsi**

## Əlahiddə Ümumqoşun Ordunun bir qrup hərbi qulluqçusu Türkiyədə keçirilən təlimdə iştirak edəcək

*Əlahiddə Ümumqoşun Ordunun bir qrup hərbi qulluqçusu Türkiyə Respublikasının Qars şəhərində keçiriləcək Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyev-2023” birgə döyüş atışlı taktiki təlimində iştirak etmək üçün Türkiyə Respublikasına yola salınıb.*

Təlimə cəlb edilmiş hərbi qulluqçuların və texnikaların Qars şəhərinə yola salınması münasibətilə mərasim keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra mərasimdə çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Rəhim Cəfərov hər iki ölkə arasındakı sarsılmaz qardaşlıqdan və keçirilən birgə təlimlərin əhəmiyyətindən danışıb. Bildirilib ki, Ümummilli Liderimizin anadan olmasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyev-2023” birgə döyüş atışlı taktiki təliminin əsas məqsədi döyüş zamanı qoşunların koordinasiyasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasından ibarətdir. Çıxışların ardından təlimə cəlb edilmiş bölmələr Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə doğru yola düşüblər. Araz çayı üzərindəki “Ümid” körpüsündən keçən bölmələrimiz Qars şəhəri istiqamətində hərəkəti davam etdiriblər.



**Kənan CƏLİLOV**




2023-cü il "Heydər Əliyev İli"dir

# Ulu Öndərimizin irsi biz gənc nəslin milli-mənəvi dəyəridir

*Bu il Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.*

10 may 1923-cü ildə Naxçıvanda dünyaya göz açan bu böyük şəxsiyyət sadə, zəhmətkeş bir azərbaycanlı ailəsinin övladı olub, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır. Müstəsna xidmətləri ilə əbədilik qazanan bu dahi rəhbərin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi biz gənclərin ibrət məktəbidir.

Tarixdə mühüm hadisələrin baş verdiyi zaman kəsiyi era adlanır. Bu mənada, Azərbaycanın tarixinin 1969-cu ildən bəri olan dövrünü "Heydər Əliyev erası" adlandırmaq olar. Çünki xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan Ümummilli Liderimiz Heydər Əliyev xalqın, millətin tarixində dönüş yaratmış görkəmli dövlət xadimidir. Ulu Öndərin hakimiyyətə gəlişi ilə başlamış müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır.

Görkəmli dövlət xadiminin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Dahi şəxsiyyət Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində Azərbaycanda hərb sənətinin təməli atıldı, iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə olundu, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri tikildi, yollar salındı, ucqar rayonlara qaz xətləri çəkildi. Respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərlərə gözəllik verən neçə-neçə yaraşıqlı binalar, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli heykəllər ucaldıldı.

Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, Azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi.

Özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Ümummilli Lider Heydər Əliyev ***"Ədaləti ədalətsizliklə bərpa etmək olmaz"***, – deyərək dövlət idarəçiliyində qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi. Dahi öndər vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirirdi.

1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Ümummilli Liderin dövlətimiz və xalqımız qarşısında ən böyük xidmətlərindən biridir.

Məhz Azərbaycanın azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan bu böyük şəxsiyyət ikinci dəfə ölkə rəhbərliyinə qayıdaraq müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. ***"Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram…"***, – deyərək O, sözün əsl mənasında, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığını nümayiş etdirdi.

Ümummilli Lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmləndirdi. Xalqımızın böyük oğlu demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi.

Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində ***"Siyasət mümkün olanı etmək deyil, mümkünsüzü bacarmaq sənətidir"*** qənaətini öz fəaliyyəti ilə təsdiq etdi, düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan üçün, xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müstəqilliyini dönməz, əbədi və daimi etdi. Azərbaycan demokratik hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyən etdi. O inkişaf ki sonrakı illərdə müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl və potensial rolunu oynadı.

Ümummilli Lider həm də Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət – Heydər Əliyev dövlətçilik məktəbini yaratdı. Ulu Öndər 2003-cü ildə xalqa tarixi müraciətində müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: ***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Zaman görkəmli dövlət xadiminin bu inamını təsdiq etdi. Bu gün Prezidentimiz cənab İlham Əliyev öz praqmatik və müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Dövlətin sükanının etibarlı əllərdə olduğunu görən xalq öz Prezidentinə daim dəstək verir və onun arxasınca inamla gedir.

Böyük qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti özünün yeni, müasir inkişaf dövrünü yaşayır. Hər birimiz xalqımızın böyük oğlunun dövlətçilik amallarına sadiq qalaraq Ulu Öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq üçün Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməli, dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vəzifələrimizi layiqincə yerinə yetirməli və daha əzmkarlıqla çalışmalıyıq.

Şübhəsiz ki, Ümummilli Liderimizin dühasını, onun xalqımız qarşısında xidmətlərini sonadək öyrənmək qeyri-mümkündür. Dahi rəhbərin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb olunur. Zaman keçdikcə isə bu dahi insanın adı və əməlləri Azərbaycan xalqının yolunu işıqlandırır.

Hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyət Heydər Əliyev haqqında dünyanın məşhur simalarının necə heyranlıqla, ehtiramla danışdıqlarının şahidiyik. Müasiri olan dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimləri tərəfindən böyüklüyü etiraf edilən, o cümlədən ABŞ-ın sabiq prezidenti Corc Buşun "Şəksiz lider", Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın "Türk dünyasının tanınan və sevilən lideri", Rusiya prezidenti Vladimir Putinin "siyasi nəhəng", Fransanın sabiq prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları dahi şəxsiyyətin nəhəngliyi bu günlərdə yenidən göz önündə canlanır, qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi Ümummilli Lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş görkəmli dövlət xadiminin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və onun dahi oğlu Heydər Əliyevin adı əsrlərboyu bütün dünyada qoşa səslənəcəkdir.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyev siyasi irsidir. Bu zəngin sərvətin öyrənilməsi üçün konfranslar təşkil olunur, Azərbaycan tarixinin Heydər Əliyev erasında qazanılmış nailiyyətlər, demokratik hüquqi dövlət quruculuğunda Ulu Öndərin irsi barədə çıxışlar edilir və digər tədbirlər həyata keçirilir.

*Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.*

**Adəm İBRAHİMOV**
***Naxçıvan Dövlət Texniki Kollecinin Telekommunikasiya və kompüter sistemlərinin informasiya təhlükəsizliyi ixtisası üzrə I kurs tələbəsi***

**Məqalə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən "Dahilik zirvəsi" esse müsabiqəsinə təqdim etmək üçündür**

## Naxçıvanda yerli resurslardan iqtisadi inkişafda səmərəli istifadəyə dair müzakirə aparılıb



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin rəhbərləri və aidiyyəti şöbələrinin birgə iştirakı ilə keçirilən görüşdə sənayedə istifadəsi perspektivli hesab olunan təbii ehtiyatların iqtisadi dövriyyəyə cəlb edilməsi məsələləri müzakirə olunub.

Tədbirdə iqtisadiyyat naziri Tapdıq Əliyev sənayedə istehsalın dəstəklənməsi məqsədilə yerli xammaldan səmərəli istifadənin əhəmiyyətini qeyd edib, təbii resursların sənayenin müxtəlif sahələrinin, o cümlədən metallurgiya, tikinti, kimya, qida və digər sahələrin inkişafında rolunu xüsusi vurğulayıb. Nazir bildirib ki, dağ-mədən sənayesi inkişaf etdiriləcək, yeni layihələr hazırlanaraq sahibkarlara təqdim ediləcək, özəl sektorun iştirakı ilə son məhsulun istehsalına qədər texnoloji zəncir qurulacaq, bu sahənin ixrac potensialı genişləndiriləcək.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev bildirib ki, indiyədək aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində muxtar respublikada öyrənilmiş müxtəlif növ filiz, qeyri-filiz faydalı qazıntı və tikinti-inşaat materialları yataqlarından səmərəli şəkildə istifadə olunması iqtisadiyyatın, o cümlədən sənayenin inkişafında mühüm rol oynayacaq.

Bununla yanaşı, dövlət balansında qeydiyyata alınmış qeyri-filiz faydalı qazıntı ehtiyatları olan seolit, gips, gəc, keramika xammalı, dolomit, gil, travertin, soda üçün əhəngdaşı xammalı, eləcə də şüşə xammalının sənayenin müxtəlif sahələrində istifadəsina geniş imkanın olduğu müzakirə edilib.

***Xəbərlər şöbəsi***

## Muxtar respublikada kinoa bitkisinin sınaq əkini keçirilib

*Naxçıvan şəhərinin Əliabad qəsəbəsi ərazisində 0,5 hektar ərazidə kinoa əkini həyata keçirilib. Əkin Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri tərəfindən təcrübə məqsədilə aparılıb.*



Kinoa bitkisi kifayət qədər susuzluğa davamlı, torpaqdan duzluluğu götürən bitkidir. Bu bitki həm ərzaqlıq, həm də yem bitkisi kimi istifadə edilir. 100-dən çox növü olan bu bitki ağ, qara və açıq-qəhvəyi rənglərinə görə fərqlənir. Vətəni Cənubi Amerikanın qərb sahilindəki And dağları bölgəsi olan bu bitki ilk dəfə Azərbaycana Türkiyə Respublikasından gətirilib və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən əvvəlki illərdə Azərbaycanın digər bölgələrində sınağa cəlb olunub.

Hazırda Naxçıvan Muxtar Respublikasında təcrübəsi aparılan bu bitki torpaq-iqlim şəraitinə uyğunlaşarsa və məhsuldarlığı yüksək olarsa, gələcəkdə geniş əkin sahələrində əkilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Yeni yaradılan BMT modeli klubunun ilk simulyasiya konfransı olub



Naxçıvan Dövlət Universitetində keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev ali təhsil ocağında müvafiq ixtisaslar üçün təşkili davamlı xarakter alan belə simulyasiyaların tələbələr üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov "BMT simulyasiyası" layihəsi haqqında məlumat verərək diqqətə çatdırıb ki, layihədə iştirak etmək üçün 30 tələbə qeydiyyatdan keçib. Mövzu ilə bağlı biliklər müsahibə yolu yoxlanıldıqdan sonra 15 iştirakçı simulyasiyada çıxış etmək hüququ qazanıb.

AZMUN – BMT modeli klubları şəbəkəsi proqramının rəhbəri Leyla Məmmədzadə çıxışında bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən keçirilən təqdimat BMT modeli klubları şəbəkəsinin fəaliyyətinə həsr edilib. Qeyd olunub ki, Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqı təsdiqlənən Dövlət proqramını əsas tutaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Gənclər Fondu və BMT-nin Azərbaycandakı Nümayəndəliyinin tərəfdaşlığı ilə "AzMUN – ölkəmizdə BMT modeli klubları şəbəkəsinin fəaliyyətinin dəstəklənməsi" proqramını icra edir.

Sonra simulyasiyaya start verilib. İştirakçılar Avropa, Asiya, Amerika kimi müxtəlif qitə ölkələrini təmsil edərək BMT-nin İnsan Hüquqları Şurasında ingilis dilində "Dinə və ya inanca görə insanlara qarşı dözümsüzlük və ayrı-seçkiliklə mübarizə" mövzusu üzrə müzakirələr və debatlar aparıblar.

Sonda simulyasiyada fəal iştirak edərək ABŞ-ı təmsil edən Beynəlxalq münasibətlər ixtisası üzrə IV kurs tələbəsi Fatimə Sultanovaya "Fəal nümayəndə", Fransanı təmsil edən Mühasibat uçotu və audit ixtisası üzrə IV kurs tələbəsi Mircəfər Seyidova "Ən yaxşı natiq", Tərcümə (ingilis-Azərbaycan) ixtisası üzrə I kurs tələbəsi Fərid İbrahimova "Ən yaxşı nümayəndə" nominasiyaları üzrə diplomlar təqdim edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Nurlu amalı, işıqlı əməli ilə fəxarət zirvəsindən dünyamıza şəfəq saçan Əbədiyyət Günəşi




*İşıqlı əməli, nurlu amalı, bəşəri ideyaları ilə xalqına misilsiz xidmətlər göstərən elə ali insanlar var ki, onlar cismən həyatdan ayrılsalar da, mənən əsrlərin yolyoldaşına çevrilərək əbədi Günəş kimi daim nur saçırlar. Ucalıq adlı zirvəni də elə məhz belə insanlar fəth edir. Ana və qadın adının ucalığını, ömür-gün yoldaşına vəfanı, nurlu həkimliyin müqəddəsliyini taleyində əbədiləşdirən Zərifə xanım Əliyeva kimi...*

Azərbaycan qadınına məxsus yüksək keyfiyyətləri, ali dəyərləri özündə ehtiva edən, müstəsna xidmətlərinə, ali məziyyətlərinə, xeyirxahlığına görə ön sırada dayanan, böyük ziyalı, nəcib qadın, müqəddəs ana Zərifə xanım Əliyeva Azərbaycan qadınlarının vüqar, iftixar və fərəh səmasında parlayan əbədiyyət şəfəqi, nəciblik zirvəsi, zəriflik timsalı, şərəf və ləyaqət nümunəsidir. Dünya təbabətində özünəməxsus yeri olan, tibb elmində çıraq kimi şölələnən Zərifə xanım Əliyeva fitri istedada malik alim, Tanrının xalqımıza bəxş etdiyi pak və nadir insan idi. Onun mənalı ömür yolu bu gün də, gələcəkdə də hər bir alim və həkim, hər bir Azərbaycan vətəndaşı, hər bir qadın üçün əsl həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Təbiətin bəxş etdiyi nadir keyfiyyətlər, yorulmaq bilmədən çalışmaq əzmi onu hərtərəfli bir şəxsiyyətə çevirmişdi. Zərifə xanım Əliyeva, eyni zamanda Azərbaycan xanımlarının bütün gözəl xüsusiyyətlərini özündə birləşdirən qadınlıq meyarı idi. Görkəmli oftalmoloq-alim, qayğıkeş həkim, gözəl ana və fədakar həyat yoldaşı kimi şərəfli bir ömür sürən Zərifə xanım Ulu Öndər Heydər Əliyevin layiqli həyat yoldaşı, sadiq dostu və məsləkdaşı idi. Zərifə xanımın çoxşaxəli humanitar missiyası bu gün Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. İndi biz Zərifə xanıma xas bütün insani dəyərləri, xeyirxahlığı, qadın ucalığını Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin ayrı-ayrı nümunələrində görürük. Bütün bunlar təsdiq edir ki, Zərifə xanım Əliyeva irsi yaşayır, xeyirxahlıq missiyası davam etdirilir. Zərifə xanım kimi, Mehriban xanım Əliyeva da fəaliyyətini insanların rifahına yönəldir, köməyə ehtiyacı olanlara daim dayaq olur.

Görkəmli oftalmoloq-alim, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi Zərifə xanım Əliyevanın adı bu gün də dünyanın ən görkəmli alimlərinin adı ilə bir sırada çəkilir. Özündən sonra çox zəngin elmi irs qoyan akademik fundamental tədqiqatları ilə təkcə Azərbaycan oftalmologiyasını deyil, eyni zamanda bu sahədə dünya elmini zənginləşdirib, inkişaf etdirib və dünya işığına həsrət qalan yüzlərlə xəstə məhz onun şəfalı əllərindən nicat tapıb.

Dünya miqyaslı elmi nailiyyətlər qazanan Zərifə xanımın ömür yoluna nəzər salsaq, bir daha görərik ki, insanlara həyat nuru bəxş edən bu böyük insanda alim və vətəndaş anlayışları bölünməzdir. Təbii ki, bu, ilk növbədə, onun doğulduğu, xalqına məxsus milli-mənəvi dəyərlər zəminində tərbiyə aldığı ailə ilə taleyini bağladığı dünyanın ən böyük şəxsiyyətlərindən biri Ümummilli Lider Heydər Əliyevlə ömür-gün dostu olmasında idi. Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyət, dünya şöhrətli siyasi xadim Zərifə xanım Əliyeva haqqında deyirdi: ***"Zərifə xanım kimi həyat yoldaşım olduğuna, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən çox xoşbəxt olmuşam!"*** Ulu Öndərin sədaqətli dostu, etibarlı silahdaşı olan Zərifə xanıma məhəbbəti bənzərsiz, əbədiyaşar, ulu məhəbbət idi.

Zərifə xanım Əliyeva da qədim Naxçıvan torpağında dünyaya göz açmışdı. O, 1923-cü il aprelin 28-də indiki Kəngərli rayonunun Şahtaxtı kəndində görkəmli alim, dövlət xadimi Əziz Əliyevin ailəsində anadan olmuşdu. 1947-ci ildə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirən Zərifə xanım Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda həkim-oftalmoloq kimi əmək fəaliyyətinə başlamış, 1953-cü ildə aspiranturanı bitirmiş, ömrünü oftalmologiyanın vacib istiqaməti, xüsusən traxoma xəstəliyinin öyrənilməsinə bağlamışdı. Bu o illər idi ki, Azərbaycan rayonlarında traxoma göz xəstəliyi geniş yayılmışdı və bu xəstəliyə qarşı mütərəqqi müalicə üsulları, demək olar ki, yox idi. O vaxtlar bir gənc həkim kimi Zərifə xanım da bu xəstəliklə mübarizədə fəal iştirak edir, tez-tez rayonlarda olub əhali ilə görüşürdü. Bu gərgin əməyin, müşahidə və tədqiqatların nəticəsi olaraq Zərifə xanım 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edir.

Onun diqqətini daha çox oftalmologiyada az tədqiq edilmiş görmə orqanlarının professional patologiyası kimi bir sahə özünə çəkir. Lakin bu nə qədər aktual olsa da, tədqiqat metodlarına görə çətin idi. Çünki bundan ötrü kimya sənayesi müəssisələrində geniş araşdırmalar aparmaq vacib idi. Zərifə xanım Bakıda bir sıra sənaye müəssisələrində eksperimentlər apararaq uğurlu nəticələrə nail olub. Bu baxımdan onun təşəbbüsü ilə Bakı Məişət Kondisionerləri Zavodunda görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasının yaradılması, xüsusilə vurğulanmalıdır. Məhz uzun illərin araşdırmaları sayəsində Zərifə xanım "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edir.

Bax beləcə, görkəmli oftalmoloq öz tədqiqatları, elmi araşdırmaları ilə tibb elminə mühüm yenilik gətirərək bu sahədə şöhrət zirvəsinə ucalıb. Oftalmologiya sahəsində ən yüksək – Akademik M.İ.Averbax adına mükafata layiq görülmüş Zərifə xanım 160-dan çox elmi məqaləsi, 23 kitabı, 12 səmərələşdirici təklifi ilə tibb elmini xeyli zənginləşdirmiş və bu elmi irs bu gün də göz həkimləri, bu ixtisas üzrə təhsil alan tələbələr üçün əvəzsiz bir mənbədir.

O, eyni zamanda əvəzsiz bir pedaqoq idi. Oftalmologiya elminin inkişafında misilsiz xidmətlər göstərən alim bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasında da böyük əmək sərf etmişdir. O, gənc həkimlərin hərtərəfli yetişməsinə, tərbiyəsinə də xüsusi diqqət yetirirdi. Mərhəmətli, son dərəcə qayğıkeş, həssas insan olan, insanlığı, milli-mənəvi dəyərləri uca tutan alim-pedaqoq öz yetirmələrinə də bunu təlqin edirdi.

Zərifə xanım, həmçinin fəal vətəndaş mövqeyi, ictimai fəaliyyəti ilə də nəsillərə örnək olan bir şəxsiyyət idi. O, gərgin elmi fəaliyyəti ilə yanaşı, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və SSRİ Oftalmologiya Elmi Cəmiyyətinin "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərirdi. Son dərəcə sadə olduğu qədər də müdrik ali dəyərlərə malik Zərifə xanımın ömrü qadın, həyat yoldaşı, ana kimi də ucalıqda durur.

Onun Vətən, xalq qarşısında xidmətləri öz ailəsinin timsalında da təcəssüm edir. O, dünya şöhrətli dahi, əvəzsiz dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevə son dərəcə vəfalı dost, sirdaş, arxa, dayaq olub. Xalqına, millətinə ürəkdən bağlı olan iki övlad böyüdüb. Müstəqil Azərbaycan dövlətinin dünya birliyində layiqli yer tutmasına, bu ölkəni lider dövlətə çevrilməsinə nail olan bir övlad – xalqına, Vətəninə sədaqətli Prezident olan cənab İlham Əliyev kimi şəxsiyyət yetirdiyinə görə görkəmli alim, pedaqoq, ictimai xadim Zərifə xanım Əliyevanı daim böyük ehtiram və minnətdarlıq hissi ilə anacağıq.

Qədim Naxçıvan torpağının müdrik övladı, nəciblik və zəriflik timsalı Zərifə xanım, təəssüf ki, həyatdan vaxtsız köçdü. Onun dünyasını dəyişməsi təkcə ailəsi, yaxınları, dostları, onu tanıyanlar üçün deyil, bütün Azərbaycan xalqı üçün ağır itki oldu. Gözlərə işıq, qəlblərə nur bəxş edən, dünyaya gəlişi bahara düşən Zərifə xanım Əliyeva elə bir bahar günündə də – 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşdu.

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirə tək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

*Aylar ötür, il üstünə il gəlir. Zaman ötür, nəsillər dəyişir. Lakin bizə əziz olan insanların xatirələri unudulmur. Akademik Zərifə Əliyeva da gözəllik, xeyirxahlıq, nəciblik, mücəssəməsi kimi gələcək nəsillərin yaddaşında günəştək sönməz işığı ilə yaşayır və əbədi yaşayacaqdır.*

**Gülcamal TAHİROVA**

*Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən "Maliyyə Savadlılığı Layihəsi" çərçivəsində "Naxçıvan" Universitetində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan "Açıq bankçılıq" mövzusunda təlim keçirilib.*

# *"Açıq bankçılıq"* mövzusunda təlim keçirilib



Universitetin rektoru, dosent Anar Kazımov tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, müasir bank məhsul və xidmətlərinə günümüzdə böyük kütlə tərəfindən maraq göstərilməsi mövcud sahədə baş verən innovativ inkişafın bariz nümunəsidir. Qeyd edib ki, tələbələrin bu təlimlərdə iştirak etməsi onların nəzəri biliklərinin təcrübədə formalaşması üçün mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev vurğulayıb ki, bu tip təlimlərin məqsədi cəmiyyət və gənc nəsil arasında bank məhsul və xidmətləri ilə bağlı əməliyyatlarda daha çevik və düzgün qərarların verilməsini dəstəkləmək və onlarda yenilikçi bank sektoruna inamı gücləndirməkdən ibarətdir.

Videobağlantı ilə tədbirə qoşulan Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev muxtar respublikada əhalinin bank savadlılığının artırılması istiqamətində maarifləndirici birgə seminar və tədbirlərin keçirilməsinə bundan sonra da müvafiq dəstəyin göstəriləcəyini bildirmişdir. Çıxış zamanı maliyyə texnologiyalarının əhəmiyyətini vurğulayaraq maliyyə inkluzivliyinin artırılması, ölkəmizin açıq bankçılıq sahəsinə inteqrasiyası və bu sahədə atılan addımlar haqqında məlumat verib.

Mərkəzi Bankın İqtisadi təhlil və statistika şöbəsinin rəisi Vüqar Məmmədzadə və şöbənin əməkdaşı Mərhəmət Bayramov tərəfindən "fintex" anlayışı və təkamülü, onun formaları, açıq bankçılıq və onun üstünlükləri, kibergigiyena qaydaları və digər mövzular elektron slaydlarla tədris olunub, suallar cavablandırılıb.

Sonda iştirakçılar arasında oyun əsaslı tədris platforması olan "Kahoot" sistemi vasitəsilə yarış keçirilib. Bilik yarışında tələbələrə 15 sual ünvanlanıb. Qaliblərə idarənin rəhbərliyi və regionda fəaliyyət göstərən "Naxçıvanbank", "Azərbaycan Beynəlxalq Bankı", "Azər-Türk Bank", "Kapital Bank" Açıq Səhmdar cəmiyyətlərinin yerli filialları və "Rabitəbank" ASC-nin şöbəsi tərəfindən sertifikatlar və müxtəlif dəyərli hədiyyələr təqdim edilib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

# Naxçıvanda obyektlərin 70,2 faizində yeni nəsil nəzarət-kassa aparatı quraşdırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti tərəfindən yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində işlər davam etdirilir. 2023-cü il aprelin 1-nə muxtar respublika ərazisində 1,415 ədəd yeni nəsil nəzarət-kassa aparatı quraşdırılıb. Cari ilin yanvar-mart aylarında yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 27,4 milyon manatdan çox, təkcə mart ayında isə ilin əvvəli ilə müqayisədə 2,2 dəfə çox olub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Muxtar respublikada hemofiliyalı xəstələrə yüksək dövlət qayğısı göstərilir

1989-cu ildən bəri hər il 17 aprel "Ümumdünya Hemofiliya Günü" kimi qeyd edilir. Hemofiliya qanın laxtalanma xüsusiyyətinin pozulması ilə xarakterizə olunan irsi xəstəlikdir. Oğlan uşaqlarına irsən ötürülən xəstəliyin əsas səbəbləri kimi mütəxəssislər yaxın qohumların nikahını, radiasiyalı ətraf mühiti, qida və tütün məmulatlarının təsirini göstərirlər. Hazırda dünyada, təxminən, 400 min nəfər hemofiliyalı xəstə vardır. Naxçıvan Muxtar Respublikasında isə bu xəstəlikdən 72 insan əziyyət çəkir. Dövlət proqramları ilə əhatə olunmuş hemofiliyalı, talassemiyalı xəstə və imtiyazlı qrup xəstələrə yüksək qayğı göstərilir, bu kateqoriyadan olan şəxslərin sağlamlıqlarının qorunması və təmin olunması istiqamətində müvafiq tədbirlər görülür, onların müayinə, müalicə və dərman təchizatı sahəsində keyfiyyətli tibbi xidmətin göstərilməsi işi daim nəzarətdə saxlanılır. Muxtar respublikada dispanser qeydiyyatında olan hemofiliyalı xəstələrə hər ay təmənnasız olaraq VIII faktor preparatları – oktanat, feiba, vilate verilir. Ehtiyac olduqda həmin xəstələr eritrositar kütlə və ya təzə dondurulmuş plazma ilə təmin olunurlar.

Mövzu ilə bağlı Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsin Hematologiya şöbəsinin müdiri, həkim-hematoloq Leyla Bağırova bildirir ki, hemofiliya irsi xəstəlik olub, VIII qan laxtalanma faktorunun (Hemofiliya A) və ya IX qan laxtalanması faktorunun (Hemofiliya B) defisiti ilə əlaqədar yaranaraq hematoma tipli sindromla kişilərdə aşkar olunur. Xəstəlik bir yaşa qədər özünü büruzə vermir. Uşaq yeriməyə başlayanda və ya iməkləyəndə aldığı travmadan ağızın selikli qişasından və burundan qanaxma müşahidə olunur. Bəzən isə uşağa vurulan ilk peyvənddən hematoma yaranır. Bu da xəstəliyin aşkar edilməsinə səbəb olur.

Həkimin sözlərinə görə, hematoma tipli qanaxmalar iri oynaqlarda – diz oynağı, dirsək, bud-çanaqda olur. Nəticədə, oynaq şişir, qızarır, çox ağrılı olur və əl vurduqda istilik hiss edilir. Bəzən əzələlərə qansızma, burun və mədə-bağırsaq qanaxmaları, böyrək və sidikçıxarıcı orqanlarda qansızma ola bilər.

Xəstəliyin müalicə metodlarından danışan Leyla Bağırova onu da qeyd edir ki, hemofiliyalı xəstələrə bütün dərmanlar venadaxili və ağızdan (peros) verilir. Tərkibində aspirin olan dərmanların qəbulu qəti qadağandır. Hər bir hemofiliyalı xəstə ev şəraitində stasionar və ambulator müalicə ala bilər. Bununla bağlı mütəmadi olaraq həkim-hematoloqlar tərəfindən xəstələrin ailə üzvləri və özləri ilə maarifləndirici söhbətlər edilir, onlara bukletlər paylanılır.

Bu xəstəlikdən qorunmaq üçün yaxın qohumlarla nikaha daxil olmaqdan imtina etmək lazımdır. Belə ki, xəstəlik ana xətti ilə nəsildən-nəslə ötürülür. Hemofiliyalı xəstə olan atanın oğlan övladları tam sağlam, lakin qız övladları isə daşıyıcı olaraq dünyaya gəlir. Daşıyıcı qız ailə həyatı quranda doğulan oğlanlardan biri sağlam, digəri isə hemofiliya xəstəsi kimi doğulur. Hemofiliyalı xəstələrə diaqnozun təyin edilməsi ailəvi anamnez, kliniki əlamətlər və laborator müayinələrin nəticəsinə əsaslanır.

Bu gün hemofiliyalı xəstələr dərmanlardan bəhrələnərək, əlilliyin qarşısını alaraq, həyat keyfiyyətləri yaxşılaşaraq sağlam insanlardan seçilmirlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*1983-cü ildə Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi ilə UNESCO tərəfindən təsis olunan Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü (Tarixi Abidələrin Mühafizəsi Günü) hər il aprelin 18-də bütün dünyada olduğu kimi, zəngin tarix və mədəniyyətə malik olan Azərbaycanda, o cümlədən onun qədim elm, təhsil və mədəniyyət mərkəzlərindən biri kimi Naxçıvan diyarında da qeyd edilir. Qədim zamanlardan bir sıra arxeoloji mədəniyyətlərin, xüsusilə Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin yarandığı, inkişaf etdiyi və ətraf ərazilərə yayıldığı mərkəz olan Naxçıvan bölgəsi orta əsrlər zamanı daha yüksək inkişaf səviyyəsinə çatmış, Yaxın Şərqin mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Hətta burada Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan memarlıq məktəbi yaranmışdı. Orta əsr qaynaqları təsdiq edirlər ki, tarixin müxtəlif çağlarında Naxçıvan bölgəsində müxtəlif təyinatlı çoxlu tarix-mədəniyyət abidələri meydana çıxmış, burada zəngin mədəni irs yaradılmışdır. Bütün bunları nəzərə alaraq Ulu Öndər Heydər Əliyev deyirdi:* ***“Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir”.***

*18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*

# Tarix və mədəniyyət abidələrinin qorunması ümumxalq işidir






Təəssüf ki, zaman keçdikcə bu abidələrin bir hissəsi təbii qüvvələrin təsirindən tədricən məhv olmuş və sıradan çıxmışlar. Tarix-mədəniyyət abidələrimizin məhv edilməsində XX yüzillikdə ölkəmizdə hökmran olan ateizm siyasətinin də rolu az olmamışdır. Belə ki, Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda orta əsrlər zamanı yaradılan tarix-mədəniyyət abidələrinin əksəriyyəti (türbələr, məscidlər, mədrəsələr, xanəgahlar və sair) İslam dini ilə sıx əlaqədar olduğundan hakim ideologiyanın tələblərinə uyğun olaraq şəxsiyyətə pərəstiş illərində onların böyük bir qismi qəsdən dağıdılmış, bəziləri isə həmin vaxt təsərrüfat məqsədilə istifadə olunmuşdur. Sovet hakimiyyəti illərində təktək tarix və mədəniyyət abidələrində təmir-bərpa işləri isə keyfiyyətsiz və başdansovdu aparıldığından az sonra yenidən uçub dağılmışdır.





Azərbaycan ərazisində mövcud olan maddi mədəniyyət nümunələri yalnız Ulu Öndər Heydər Əliyevin 1969-cu ildən ölkəyə rəhbərlik etməsindən sonra dövlət qayğısı ilə əhatə olundu. Xalqımızın mədəni irsinin qorunması və gələcək nəsillərə çatdırılması məsələsi həmişə Ümummilli Lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. ***“Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla – yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk”***, – deyən dahi şəxsiyyət Azərbaycanda hakimiyyətinin hər iki dövründə tarix və mədəniyyət abidələrinin qorunması, mühafizəsi, tədqiqi və təbliğinə böyük diqqət və qayğı göstərmişdir. Ulu Öndər Heydər Əliyev hələ Azərbaycanda hakimiyyətinin birinci dövründə tarixi-mədəni irsimizin qorunub saxlanması üçün böyük işlər görmüş və bu sahədə zəngin qanunvericilik bazası yaratmışdır. Azərbaycanda hakimiyyətinin dördüncü ilində – 1973-cü ilin sentyabrında Azərbaycan SSR Ali Sovetinin onun təşəbbüsü ilə keçirilən sessiyasında Azərbaycan ərazisindəki tarix və mədəniyyət abidələri və onların qorunması vəziyyəti müzakirə edilmişdir. Bundan az sonra 10 sentyabr 1976-cı ildə Azərbaycan KP MK “Azərbaycan SSR-də tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası işini yaxşılaşdırmaq haqqında” Qərar, 21 iyul 1978-ci ildə isə Azərbaycan SSR Ali Soveti “Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında” Azərbaycan SSR Qanunu qəbul etmişdi. 27 yanvar 1982-ci ildə Azərbaycan Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi Cəmiyyətinin Nizamnaməsi Azərbaycan SSR Nazirlər Sovetində təsdiq edilmiş, bu qəbildən digər tədbirlər həyata keçirilmişdir. Beləliklə, Azərbaycan ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması, tədqiqi və təbliği məsələsi qəbul olunan qanun və qərarlarla rəsmişləşdirilmişdir. Həmin dövrdə Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il tarixli Qərarı ilə Bakı şəhərində İçərişəhər, Şuşa və Ordubad şəhərlərinin tarixi hissələri tarix-memarlıq qoruğu elan edilmişdir.

Ümummilli Liderin Azərbaycan xalqının min illərboyu yaratdığı mədəni irsimizə diqqət və qayğısı onun müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illərdə də ardıcıl şəkildə davam etdi. Bu zaman tarix və mədəniyyət abidələrinə diqqət və qayğı ön plana keçmiş, hətta bu sahədə bir sıra dövlət əhəmiyyətli sənədlər hazırlanmışdır. Azərbaycan Respublikasının Milli Məclisi 1998-ci ildə “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, 1999-cu ildə isə “Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə” Azərbaycan Respublikasının qanunlarını qəbul etdi. Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan Respublikası Nazirlər Kabineti 2 avqust 2001-ci ildə “Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü” siyahısı təsdiq edildi. Bununla da Azərbaycan ərazisində 6300-dən artıq tarix və mədəniyyət abidəsi dövlət mühafizəsinə götürüldü. Ötən müddət ərzində bu siyahıya yeni abidələrin əlavə olunması davam etmişdir.

Ölkə ərazisində indiyədək gəlib çatan mədəni irsə münasibətlə alaqədar Heydər Əliyev siyasəti hazırkı dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və yaradıcılıqla inkişaf etdirilir. Xalqımızın mədəni irsinə diqqət və qayğı ilə yanaşan dövlət başçısı 27 dekabr 2013-cü ildə “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı” haqqında Sərəncam imzalamışdır. Tarix və mədəniyyət abidələri ilə əlaqədar Dövlət proqramının qəbul edilməsi Azərbaycan xalqının mədəni irsinə, onun qorunması, bərpası, konservasiya olunması, tədqiqi və təbliği işinə ölkə Prezidenti tərəfindən nə qədər böyük önəm verilməsinin, bu məsələnin dövlət siyasəti səviyyəsinə qaldırılmasının parlaq ifadəsidir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da müstəqillik dövründə tarix-mədəniyyət abidələrinə diqqət, qayğı, onların bərpası, qorunması sistemli şəkil almış, dövlət siyasətinə çevrilmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqları əsasında Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması, bərpası və xalqa qaytarılması ilə əlaqədar dövlət tərəfindən çox yüksək səviyyəli işlər görülmüşdür. Girişində qoyulan kitabədən də göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1998-ci ildə adı “Qurani-Kərim”də xatırlanan Əshabi-kəhf ziyarətgahında abadlıq və bərpa işləri aparılmış, Ordubad rayonundakı Gəmiqaya abidəsi yerli və beynəlxalq ekspedisiyalar tərəfindən bir neçə dəfə tədqiq olunmuşdur. Həmçinin Naxçıvan şəhərindəki İmamzadə kompleksində, Nuh Peyğəmbərin qəbirüstü türbəsində, Möminə xatın türbəsində, Xan sarayında, Köhnə qalada, Culfa rayonundakı Əlincəçay xanəgahında, Əlincəqalada, Gülüstan türbəsində, Qazançı və Ləkətağ körpülərində, Ordubad şəhərindəki hamamda, Qeysəriyyədə, buxzanada, Kəngərli rayonundakı Qarabağlar Memarlıq Kompleksində, Şahtaxtı hamamında, Babək rayonunun Nehrəm qəsəbəsindəki imamzadədə, Şərur rayonunun Xanlıqlar kəndindəki imamzadədə, Yengicə hamamında, Cəlilkənddəki buxzanada, ümumiyyətlə, 70-dən artıq tarix-memarlıq abidəsində bərpa və abadlıq işləri aparılaraq xalqın istifadəsinə verilmişdir.

2006-2007-ci illərdə Naxçıvan Muxtar Respublikası ərazisindəki 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınaraq pasportlaşdırılmış, onlar əhəmiyyətinə görə 59-u dünya, 509-u ölkə, 670-i yerli əhəmiyyətli olmaqla təsnifatlaşdırılmışdır. Toplanılan məlumatlar əsasında hər bir abidəyə aid ayrıca “Qeydiyyat kartı” hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix-mədəniyyət abidələrinin qeydə alınaraq pasportlaşdırılması bu abidələrin mühafizə işinin sistemli şəklə salınmasına yardım etməklə yanaşı, həm də bir məlum faktı da bir daha təsdiqlədi ki, erməni alimlərinin boş hay-küylərinin əksinə olaraq Naxçıvan bölgəsində erməni mənşəli tarix-mədəniyyət abidəsi yoxdur. Müstəqillik dövründə yüksək dövlət qayğısı sayəsində Naxçıvan Muxtar Respublikası ərazisindəki abidələrin öyrənilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Bu işdə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə yaradılan AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşlarının, ərazidə fəaliyyət göstərən AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun, yerli və beynəlxalq arxeoloji ekspedisiyaların böyük rolu olmuşdur. Bu ekspedisiyaların tərkibində Bakıdan və yerli alimlərlə birlikdə ABŞ-dan, Fransadan, Türkiyədən, Macarıstandan və başqa ölkələrdən gəlmiş alimlər də iştirak etmişlər. Ekspedisiyaların fəaliyyəti zamanı əldə olunan nəticələr Azərbaycanın qədim diyarı Naxçıvanın tarix və mədəniyyət abidələrinin Azərbaycan xalqına məxsus olması haqqında həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılmasında mühüm əhəmiyyətə malik olmuşdur. Muxtar respublikanın müxtəlif yerlərində, o cümlədən I Kültəpə, Duzdağ, Yeni yol, Uçan Ağıl, Zirincli, Şorsu, Ərəbyengicə, Ovçular təpəsi, Qızqala, Oğlanqala, Naxçıvantəpə, Gəmiqaya, Xaraba Gilan və sair abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı Naxçıvanın qədim dövr tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik olan zəngin maddi mədəniyyət nümunələri aşkar edilərək tədqiq olunmuşdur.



Muxtar respublika ərazisində aparılan tədqiqatların nəticəsi kimi Azərbaycan və ingilis dillərində “Naxçıvan abidələri ensiklopediyası”, 3 cildlik “Naxçıvan tarixi”, “Dədə Qorqud yurdu Naxçıvan” tarixi-coğrafi və etnoqrafik atlas və sair kimi ümumiləşdirici əsərlər, onlarla kitab və monoqrafiya, o cümlədən “Naxçıvanda arxeoloji tədqiqatlar”, “Gəmiqaya qayaüstü rəsmləri”, “Əlincəqala”, “Qarabağlar Türbə Kompleksi”, “Gülüstan türbəsi” və sair əsərlər hazırlanıb nəşr edilmişdir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar “Naxçıvanın türk-İslam mədəniyyəti abidələri”, “Naxçıvan türbələri”, “Naxçıvan imamzadələri”, “Naxçıvan buxzanaları”, “Naxçıvan hamamları” və sair kitab və kitabçalar işıq üzü görmüşdür. Həmçinin Naxçıvanın tarix və mədəniyyət abidələrini təbliğ etmək məqsədilə ərazidəki türbələrdən, buxzanalardan, hamamlardan, ümumiyyətlə, bölgədəki türk-İslam mədəniyyəti abidələrindən bəhs edən bir neçə televiziya filmi çəkilmişdir.

Ümummilli Liderimiz vurğulayırdı ki, böyük və ya kiçik olmasından asılı olmayaraq, hər bir abidə əhəmiyyətlidir. Həqiqətən də, belədir. Çünki kiminsə nəzərində əhəmiyyətsiz görünən hansısa maddi mədəniyyət nümunəsi, hətta kiçik saxsı parçası tədqiqatçıya tariximizin mühüm bir probleminin həll olunmasında böyük yardım edə bilər. Ona görə də hər bir vətəndaş bu məsələdə prinsipial mövqe tutmalı, tarix-mədəniyyət abidələrinin dağıdılmasının qarşısını özü, yaxud ictimaiyyətin köməyi ilə almağa çalışmalıdır. Abidələri qorumaq, onların gələcək nəsillərə çatdırılmasını təmin etmək hər bir kəsin vətəndaşlıq borcu və konstitusion vəzifəsidir. Çünki Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində qeyd olunduğu kimi: *“Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır”.* Ona görə də ölkəmizdə bu günə qədər gəlib çatan tarix və mədəniyyət abidələrinə hörmət və ehtiramla yanaşmaq, ən başlıcası onları qorumaq ümumxalq işinə çevrilməlidir. Çünki Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsində təsbit olunduğu kimi: *“Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur”.*

**Hacıfəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Başlıbel faciəsi:
## soydaşlarımıza, tarixi-mədəni irsimizə qarşı vandalizm aktı və soyqırımı siyasətinin növbəti təzahürü

*Başlıbel faciəsindən 30 il ötür*

Başlıbel Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biridir. İki dağ çayının qovuşduğu yerdə, Dəlidağın ətəyində yerləşən kənd Azərbaycan türklərinin məskəni olub. Müxtəlif illərdə aparılan arxeoloji qazıntılar zamanı qəbirlərdən tapılan insan sümükləri, bəzək əşyaları, dəmir sikkələr də bunu sübut edib. Kəlbəcər Diyarşünaslıq Muzeyinə təhvil verilən belə tarixi eksponatların böyük bir hissəsi Kəlbəcərin işğalı zamanı dağıdılıb.

*Kəlbəcər rayonunun işğalı və Başlıbel kəndində törədilən qətliam*

1993-cü il aprelin 2-də Kəlbəcər Azərbaycan Xalq Cəbhəsi rəhbərliyinin səriştəsizliyi, yarıtmaz fəaliyyəti, xəyanəti nəticəsində ermənilər tərəfindən işğal edildi, minlərlə kəlbəcərli



Xanlar rayonunda Kəlbəcər qərargahı



öz doğma yurdlarından qovulub didərgin salındı. Həmin dövrdə Başlıbel kəndində də ermənilər tərəfindən azərbaycanlılara qarşı kütləvi qırğınlar törədildi. Bu cinayət zamanı ermənilər içərisində uşaqların, qadınların, əlilliyi olan şəxslərin, ahılların da olduğu kənd əhalisini müxtəlif işgəncələrə məruz qoymaqla kütləvi şəkildə qətlə yetirmiş, bəzilərini diri-diri yandırmışdı. Başlıbelin tarixi, mədəni və dini obyektləri işğal zamanı dağıdılaraq məhv edilmişdi. Kənd əhalisi qəhrəmancasına düşmənə müqavimət göstərmiş, doğma torpaqlarını tərk etmək istəməyən 62 nəfər kahalara – təbii mağaralara sığınmışdı. Lakin erməni quldurları qadın, uşaq və yaşlıların gizləndiyi yeri aşkarlayaraq bir hissəsini qətlə yetirmiş, 19 nəfər kənd sakini girov götürülmüş, düşmən güllələsindən canını qurtara bilən 30 nəfər isə yenidən dağlara çəkilib 113 gün mühasirə həyatı yaşamışdı. Sonralar sağ qalan 29 nəfər Daşkəsən ərazisinə keçərək canlarını qurtara bilmişdi. Düşmənə qarşı döyüşlərdə qəhrəmanlıq göstərmiş 9 nəfər şəhid, 4 nəfər sağlamlığını itirərək əlil olub. İtkin düşən 2 nəfər kənd sakinindən indiyədək heç bir məlumat yoxdur.

İşğal zamanı kəndin fərdi yaşayış evləri, məktəbi, uşaq bağçası, xəstəxana, mağazaları, hamamı, çörək sexi, klub, mədəniyyət evi, kitabxanası və digərləri ermənilər tərəfindən dağıdılıb və ya qarət edilib.

*Başlıbel faciəsi şahidlərin dili ilə*

Ötən müddət ərzində bu faciənin araşdırılması, tədqiqi dövlətin daim diqqət mərkəzində saxlanılıb. 2017-ci ildə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" layihəsi əsasında eyniadlı kitab nəşr edilib. Azərbaycan və ingilis dillərində çap olunan nəşrdə Başlıbel kəndində törədilmiş qırğın haqqında canlı şahidlərin fikirləri, mühasirədə qalanları xilas etmək üçün böyük fədakarlıq göstərmiş şəxslərin xatirələri yer alıb.

Şahidlərin bir neçəsinin müxtəlif xəbər portallarına verdikləri müsahibəni təqdim edirik.

113 gün Başlıbel kəndində Ermənistan ordusunun mühasirəsində qalmış 62 nəfərdən ibarət dəstənin üzvü ***Elşad Əzizov*** deyib: "Qəfil çovğun başlayandan sonra, gecə saat 1-in yarısında silahlı erməni quldurlarının əsas hissəsi "Portda" kahalarının ətrafından geri çəkilib kəndə tərəf qayıtmağa başladılar. Amma köməksiz vəziyyətdə kahalara sığınmış dinc sakinlərə qarşı törətdikləri vəhşiliklərdən doymamışdılar. Girov götürdüklərini qabaqlarına qatıb aparan quldur dəstələri həmin gecə Başlıbel kənd orta məktəbinin binasını yandırdılar. "Portda"da isə atışma davam edirdi. Hələ sağ qalanların kahalarda gizləndiyindən şübhələnən 4 quldur PK pulemyotu ilə atəş açaraq irəliləyirdi. Kahada sağ qalan əliyalın sakinləri qorumağa çalışan zərdablı Vüqar əsil qəhrəmanlıq göstərirdi. O, son nəfəsinə qədər döyüşərək ermənilərə kahada gizlənənlərin yerini müəyyənləşdirməyə imkan vermirdi. Bir an içərisində cəsarətlə kahanın ağzına çıxan Vüqar Abdullayev quldurların dördünü də yerə sərdi. Yenidən əvvəlki mövqeyinə doğru qaçarkən quldurlardan birinin atdığı qumbara onu kahanın 3-4 metrliyində haqladı. Vüqar da həmin gecə şəhid oldu".

Həmin dəhşətli qətliamdan danışan, Birinci Qarabağ müharibəsində tankçı olmuş ***Məzahir Abbasquliyev***: "Sonda səkkiz döyüşçü ilə birlikdə qaldıq və 62 mülki şəxsi dağlarda sığındıra bildik. Düşmənə müqavimət göstərərkən erməni quldurları tərəfindən 27 mülki şəxs öldürüldü. Onlar yaşlı Hüseyn Hüseynovu diri-diri yandırıblar. Kənd sakini, ruhi xəstəlikdən əziyyət çəkən Qənaət Ağayevi işgəncə ilə qətlə yetiriblər. Yaşlı şəxslərdən, qadınlardan və uşaqlardan ibarət 19 nəfər kənd sakini isə Ermənistan hərbçiləri tərəfindən girov götürüldü. Düşmən güllələsindən canını qurtara bilən 30 nəfər isə yenidən dağlara çəkilərək daha 113 gün mühasirə həyatı yaşadı. Mühasirədən çıxaraq dörd sutka piyada yol qət edən 29 nəfər 1993-cü il iyulun 22-də Daşkəsən ərazisinə keçə bilib. Amma 1 nəfər – I və II Dünya müharibəsi iştirakçısı Ələsgər Ələsgərov doğma torpağını tərk etməyərək Başlıbeldə qalıb. Ələsgər Ələsgərovdan bu günədək itkin sayılır və onun barəsində hər hansı məlumat yoxdur".

*Tarixi qələbə – Kəlbəcərin işğaldan azad olunması*

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəlməsi Azərbaycanın müstəqilliyi və dövlətçiliyinin qorunub saxlanılmasında əsas oldu. Ulu Öndərin yolunu ləyaqətlə davam və inkişaf etdirən Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Şanlı Vətən müharibəsində xalqımız böyük Zəfər qazandı. 2020-ci ildə müzəffər Ordumuz cəmi 44 gündə ermənilərin möhkəmləndirdiyi və keçilməz elan etdikləri mühafizə səddlərini darmadağın edərək düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Beləliklə, sərt iqlimə və mürəkkəb coğrafi relyefə – hündür dağlara malik Kəlbəcər rayonu bir güllə atılmadan, şəhid vermədən düşmən tapdağından azad edildi. Ötən müddət ərzində Kəlbəcərin Baş Planı təsdiq olunub, kəlbəcərlilərin öz doğma yurdlarına qaytarılması üçün tikinti-quruculuq işləri həyata keçirilməkdədir.

*Ermənistan törətdiyi cinayətlərə görə məsuliyyətdən qaça bilməyəcək*

Ermənistanın dinc soydaşlarımıza qarşı törətdiyi cinayətlər gözlərimizin önündə canlanır. Uzağa getməyək. 44 günlük Vətən müharibəsində artıq məğlubiyyətlərini dərk edən erməni silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi terror aktları yaddaşlardan çıxmayan faktlardır. Ermənistan ordusunun cəbhədən xeyli uzaqda yerləşən Gəncə şəhərinə ayrı-ayrı vaxtlarda 5 dəfə raket hücumu nəticəsində kişi, qadın və uşaq da olmaqla, 26 nəfər dinc sakin qəsdən öldürülüb, 6 ailə tamamilə məhv edilib, 175 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Vətən müharibəsi zamanı təkcə Gəncə deyil, eyni zamanda Bərdə, Yevlax, Beyləqan, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Xızı və digər şəhər və rayonlarımızın da ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulması nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Bu gün hər bir fakt dövlətimiz tərəfindən qeydə alınır, ciddi araşdırılır və cinayət işləri qaldırılır.

*Ölkə başçısı Birinci Qarabağ müharibəsində itkin düşən şəxslərin taleyini daim diqqətdə saxlayır*

Başlıbeldə 2021-ci ilin aprel ayında aşkar olunan kütləvi məzarlıq, ötən il Edillidə tapılmış insan sümükləri Ermənistanın hərbi cinayətlərinin bariz nümunələridir. Başlıbeldə qətlə yetirilən 12 nəfərin cəsədinin DNT analizləri onların erməni hərbçiləri tərəfindən güllələnərək qətlə yetirildiyini təsdiqləyib. Ötən il Xocalı rayonunun Fərrux kəndində insan qalıqlarının aşkar edildiyi kütləvi məzarlıq, Xocavənd rayonunun Edilli kəndində aparılan qazıntı işləri zamanı aşkarlanan azərbaycanlı hərbçilərin olduğu kütləvi məzarlıq, həmçinin Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyindən hələ də xəbər olmaması ermənilərin insanlıq əleyhinə növbəti cinayətlərindən xəbər verir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 2021-ci ildə BMT-nin baş katibinə ünvanlanan Kəlbəcərin Başlıbel kəndində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinin məqsədyönlü şəkildə qətlə yetirməsi ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılan cinayət işinin ilkin nəticələrinə dair məktub BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb. Baş katibin diqqətinə çatdırılıb ki, aparılan araşdırmalar zamanı digər rayonlar ilə yanaşı, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Kəlbəcər rayonunun Başlıbel kəndinin mülki əhalisinə qarşı xüsusi amansızlıq və qəddarlığın nümayiş etdirildiyi müəyyən olunub. Kənd sakinlərinin kütləvi şəkildə vəhşicəsinə qətlə yetirildiyi, girov götürülən şəxslərə isə işgəncələr verildiyi, həmçinin həmin kəndin tamamilə dağıdıldığı və yer üzündən silindiyi bildirilib. Başlıbel faciəsinin Ermənistanın Azərbaycana qarşı təcavüzü çərçivəsində həmin qondarma dövlət tərəfindən törədilən çoxsaylı müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdən yalnız biri olduğu qeyd edilib. Ədalətin təmin olunması və müharibə sonrası barışıq üçün bütün bu cinayətlərin hərtərəfli araşdırılmasının vacib olduğu vurğulanıb.

Prezident cənab İlham Əliyev 2021-ci ilin sentyabrında BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxışı zamanı Başlıbel qırğınını xüsusi vurğulamaqla kütləvi məzarlıqlar mövzusunu BMT səviyyəsinə qaldırıb. Dövlət başçısı bildirib ki, Ermənistan itkin düşən şəxslərin taleyi ilə bağlı bizə məlumat verməlidir. Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır... Həmçinin ölkə başçısının "Xocalı soyqırımının 30-cu ildönümü haqqında" 2022-ci il 28 yanvar tarixli Sərəncamında qeyd edilir ki, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edilib, 20 min vətəndaşımız qətlə yetirilib, 50 min nəfərdən artıq adam yaralanıb və əlil olub. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qalıb...

*Beynəlxalq hüququn norma və prinsiplərini pozaraq müxtəlif təxribatlar, soydaşlarımıza qarşı çoxsaylı cinayətlər, qətliamlar törətməkdə təqsiri olan şəxslərin hüquqi məsuliyyətə cəlb edilərək ədalət mühakiməsi qarşısında cavab verəcəyi gün yaxındadır.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Hədəf Naxçıvanı "yaşıl enerji" dəhlizinə çevirməkdir

*Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın enerji təhlükəsizliyi sahəsində görülmüş işlər mühüm əhəmiyyəti ilə seçilir. Vətən müharibəsində qazandığımız qələbədən sonra ölkəmizdə "yaşıl enerji" layihələrində yeni mərhələnin başlanması isə bu sahədə qarşıya qoyulmuş hədəfləri daha da aktuallaşdırıb. Ötən dövrdə paytaxt Bakı şəhəri ilə yanaşı, ölkəmizin digər bölgələrində də bərpa olunan enerji layihələri üçün potensial ehtiyat bir daha nəzərdən keçirilib, bu istiqamətdə müvafiq addımlar atılıb. Bu yaxınlarda "yaşıl enerji" konsepsiyasının muxtar respublikada geniş tətbiqi üzrə yaradılan işçi qrupunun Naxçıvana səfəri də bu baxımdan maraqlı idi.*

Qeyd edək ki, hələ fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bildirmişdi ki, Azərbaycan hökuməti Naxçıvan Muxtar Respublikasında ən azı 500 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisinin mümkünlüyünü nəzərdən keçirir. Hətta mövcud potensialın bundan da artıq olduğunu diqqətə çatdırmışdı. Elə bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi Azərbaycan Respublikasının energetika nazirinin müavini Elnur Soltanovun rəhbərlik etdiyi işçi qrupunun Naxçıvana səfərində bir sıra istiqamətlərdə müzakirələr aparıldı, həyata keçiriləcək pilot layihələrlə bağlı müəyyən olunmuş ərazilərə baxış keçirildi.

Azərbaycan Respublikası energetika nazirinin müavini ***Elnur Soltanov*** bizimlə söhbətində bildirdi ki, hazırda cənab Prezidentin tapşırığı ilə Naxçıvanda "yaşıl enerji" zonasının tələblərinə uyğun olaraq energetika sisteminin yenidən qurulması gündəmdədir. Naxçıvanın Türkiyə bazarına çıxışının olması burada istehsal ediləcək enerjini digər bazarlara da yönəltməyə imkan verəcək.

Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru ***Cavid Abdullayev*** isə görüləcək işlər barədə danışaraq bildirdi ki, Naxçıvanda çox böyük Günəş potensialı vardır. Həmçinin hazırda müəyyən ərazilər var ki, küləyin potensialı orada külək elektrik stansiyalarının qurulması üçün yetərlidir. Bu baxımdan da çox ciddi şəkildə işlərə başlanılıb. Müsahibimiz bunu da vurğuladı ki, təxminən, 8 min hektardan çox ərazi vardır ki, onlar bərpa olunan enerji mənbələri stansiyalarının tikilməsi üçün tam şəkildə yararlı vəziyyətdədir.



Öyrəndik ki, Naxçıvanda "yaşıl enerji" konsepsiyasını reallaşdıracaq işçi qrupun işi iki istiqamətdə reallaşacaq. Birincisi uzunmüddətli strateji planda Naxçıvanın "yaşıl enerji" zonasına çevrilməsi, ikincisi isə uzunmüddətli plan başlananadək görüləcək hazırlıq işləridir.

Xatırladaq ki, hazırda muxtar respublikada Babək rayonunda 22 meqavat, Kəngərli və Şərur rayonlarının hər birində 5 meqavat gücündə Günəş, Culfa rayonunda isə külək elektrik stansiyası fəaliyyət göstərir. İşçi qrupla aparılan müzakirələrdə də qeyd olundu ki, ötən dövrdə muxtar respublikada bərpa olunan enerji mənbələrində enerji istehsalının həcmi bəzi illərdə ənənəvi enerji istehsalının 60 faizinə bərabər olub. Bu da onu göstərir ki, Naxçıvanın çox böyük enerji potensialı var. Bunu da nəzərə alaq ki, artıq muxtar respublika uzun illərdir, onunla qonşu olan ölkələrin energetika sisteminə inteqrasiya olunub, həmçinin bu ölkələrin ildən-ilə enerjiyə tələbatı artır. Bu baxımdan yaxın gələcəkdə muxtar respublikada enerji istehsalının həcminin artması ixrac üçün daha böyük imkan yaradır. Digər tərəfdən, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılması təbii-iqlim şəraiti yaşıl enerji istehsalı üçün münasib olan qərb bölgələrimizdə istehsal ediləcək elektrik enerjisinin muxtar respublika vasitəsilə ixracına yaşıl işıq yandırır. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, Naxçıvan gələcəkdə həm də "yaşıl enerji" dəhlizinə çevriləcək.

✍ **Səbuhi HƏSƏNOV**



## Ruhu iblisə satılmış "millətdən" növbəti təxribat

***Dünya üzərindəki bir çox xalq qazandığı nailiyyətləri, uğurları və müvəffəqiyyətləri ilə öyünür, bütün varlığı ilə zamanın nəbzini tutmaqla sanki tarixi qabaqlamağa çalışır. Kimisi Vətənimiz Azərbaycan kimi beynəlxalq arenada öz sözünü deyir, öz gücünü göstərir, kimisi siyasət masasında qalibiyyət əldə edir, ya da səngər önündə varlığı, canı qədər sevdiyi torpağını qoruyur. Kimisi də mənəviyyatına hopan rəzil, alçaq xislətinə sadiq qalır, ya gücünü əlsiz-ayaqsız qocaların başını kəsməkdə sınayır, ya da tarixə, daha doğrusu, tarixin qaranlıq küncünə, el arasında tarixin zibilliyi adlandırdığımız "guşəyə" adını südəmər körpələrin al qanı ilə yazır. Sətirləri oxuyan hər kəs o saat bilir ki, söhbət kimdən gedir... Yəqin ki, dünyada erməni kimi bu sadaladığımız rüsvayçı, alçaq xislətlərə sadiq qalan, məkrli niyyətlərlə qidalanıb, işğalçılıq meyilləri ilə varlığını sürdürən ikinci bir toplum tapılmaz. Ancaq dünyadakı erməni vəhşiliyi əsrlərdir, ad çıxarıb, necə deyərlər, bu "məharətləri" ilə min illərin belini büküb. Min illərdir ki, "millət" tarixə "milli varlığını" "Sən kölləsən, sən qorxaqsan, sən alçaqsan, çünki sən ermənisən" ifadələri ilə yazdırıb.***

Şanlı Vətən müharibəsindən ötən bu üç il ərzində anası murdar olmuş ulaq kimi aramlığını itirən, ya da illərdir, Azərbaycan süfrəsində ac qarnını bəs edincə doyurub, sonra da qarnında köp əmələ gəlmiş və böyürtüsü içinə çəkilmiş heyvan kimi eşinən erməni vandalları yenə də təxribata əl atmaqdan çəkinmirlər ki, çəkinmirlər... Dünya xalqları bu təxribatları görüb sanmasın ki, erməni vəhşiləri qətiyyətli və əzmkardır. Onların rəzil havadarları bu hadisələri eşidib car çəkməsinlər ki, bəs ermənilər məğlubiyyətlə barışmayan mübariz xalqdır, ya da iddia etməsinlər ki, onların gücü də, iradəsi də Azərbaycan xalqından qat-qat artıqdır. Bütün bəşər bilsin və dərk etsin ki, məşhur filosof, tarixçi Karl Marksın da dediyi kimi, tarixdə öz arvadlarını, qız-gəlinlərini yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan yeganə millət də erməni olmuşdur...

Son günlər xəbər saytlarında yayımlanan daha bir məlumat erməni dığalarının bədxah və rəzil niyyətlərini ortaya qoydu. Belə ki, düşmən ölkəsində ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması bu mənfur xalqın tarixin bütün dövrlərindəki kimi, necə aciz və zəif olduğunu bir daha ortaya çıxardı. İllərdir, beynəlxalq təşkilatların ermənilərin hər zülmünə göz yumması, hələ 90-cı illərdə Xocalı şəhərinin cəmi bir gecənin içində yer üzündən silinməsinə "xeyir-dua verməsi" vəhşi millətin fəallaşmasına stimul olub. Təbii ki, bunu yalnız beynəlxalq təşkilatların dırnaqarası siyasəti ilə də əlaqələndirmək olmaz. Çünki bu alçaq xalqın qana susamış köpək kimi dişini qıcaması üçün bir cüzi hərəkət də kifayət edir. İllərdir, əzizxələf əmmaməli qardaşlarının, dildə müsəlman, əqidədə erməniyə bərabər vandal olan "Seyyidi-Mürtəzaların" fitvası ilə azmı cinayət törətdilər?

Erməni xalqının Azərbaycan bayrağına qarşı törətdiyi bu cinayət bir neçə həqiqətə də işıq tutur. Bu addım ermənilərin Azərbaycan xalqına qarşı sərgilədiyi düşmən münasibətinin bariz nümunəsi idi. Bu həm də etnik zəmində Ermənistanda Azərbaycana, ələlxüsus da ki, azərbaycanlılara qarşı, türk soykökünə qarşı nifrətin hökm sürdüyünü təsdiq edir. Bununla yanaşı, istənilən bir ölkədə keçirilən beynəlxalq yarışda belə bir addımın atılması həmin ölkədə rasizmin, milli, dini-etnik ayrı-seçkiliyin olduğunu bütün reallığı ilə göstərir. Bütün bu sadaladığımız hadisələr qarşısında mütləq ki, Ermənistan hökuməti bütün məsuliyyəti ilə cavab verməli, həmçinin beynəlxalq səviyyədə mənfur düşmənin atdığı bu addıma siyasi qiymət verilməlidir. Çünki bu addım yalnız Azərbaycan xalqının milli dəyərlərinə yox, bütün sülh təşkilatlarının hüquq normalarına göstərilən etinasızlıq və hörmətsizlikdir.

Bütün tarixi reallıqlara söykənərək deyirik ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlərboyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Xalqımızın geninə hopmuş, milli-mənəvi dəyərlərində əbədi yaşamaq hüququ qazanmış bu ali dəyərlər erməni qəsbkarları ilə illərdir, davam edən əks-müharibə əməliyyatında da özünü göstərib. Bu gün işğaldan azad olunmuş torpaqlarımızın mənzərəsinə baxdıqda bu fərq aydınlığı ilə görünür. Min illərdən bəri Azərbaycan xalqının bütün varlığı, canı qədər sevdiyi, qoruduğu tarixi torpaqları, milli-mənəvi dəyərləri erməni şovnistlərinin əlində, sözün əsl mənasında, xarabazara çevrilib. Azərbaycan dövlətinin milli mənsubiyyətini özündə yaşadan bütün dəyərlərimizin yox edilməsi üçün əsl terror aktları törədilib. Erməni qəsbkarları tərəfindən üçrəngli bayrağımıza, ali dəyərlərə bu hörmətsizliyin edilməsi tarixdə nə ilkdir, nə son... Məğlubiyyətin rəzaləti ilə alçalmış düşmən hələ onların bir respublika kimi formalaşmasından çox-çox əvvəllər mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi, yolunda minlərlə soydaşımızın canından keçdiyi bayrağı yandırmaqla sanki bu rəzilliyi tarixdən silməyə çalışırlar, ya da ki, özlərinə bu yolla təskinlik vermək istəyirlər.

Son 20 ildə ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələr onu göstərdi ki, Azərbaycan müxtəlif dünya təşkilatları ilə sıx əməkdaşlıq və bütün beynəlxalq normalara riayət edir və ölkəmiz bir çox beynəlxalq yarışlara, olimpiadalara, müsabiqələrə ev sahibliyi edir. Bu addım nə qədər mürəkkəb və siyasi cəhətdən məsuliyyətli olsa da, dövlətimizin daim sülh və əmin-amanlıq şəraitində yaşaması, dünya dövlətləri ilə humanist münasibətlərin qurulması istisnasız hər bir ölkənin nümayəndəsini bura gəlməyə vadar edir. Lakin erməni vandallarının beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq belə bir addım atması – Azərbaycan bayrağını yandırması bir daha təsdiq edir ki, bu dövlət istər siyasi münasibətlərdə, istərsə də öz daxilində təcavüzkarlıq meyillərini açıqca nümayiş etdirir. Halbuki bütün beynəlxalq idman tədbirlərində, misal üçün, dünya çempionatında, Bakıda keçirilmiş Birinci Avropa Oyunlarında, müxtəlif turnirlərdə Vətənimiz Azərbaycan dünyanın dörd bir tərəfindən gələn iştirakçıların maksimum təhlükəsizliyini təmin edir. Şanlı Vətən müharibəsindən bir müddət əvvələ kimi erməni idmançılar da rahatlıqla Azərbaycana gəlir, yarışlarda iştirak edib vətənlərinə dönürdülər. İrəvana qayıdan zaman paytaxtımız Bakı və buradakı turnirin təşkilatı ilə bağlı televiziyalara müsbət təəssüratlarını etiraf etməli olurdular. Həmin hadisələrdən birini xatırlamaq, yəqin ki, mənim kimi oxucularımızın da qüruruna səbəb olar. Belə ki, paytaxt Bakıda keçirilən Avropa Oyunlarında Prezident cənab İlham Əliyevin böyük siyasi addımla, qətiyyətlə, sahib olduğu soykökə sədaqətlə nifrət hissi ilə coşan tamaşaçı kütləsini bir işarə ilə sakitləşdirərək medalı erməni boksçu Gevorg Manukiana təqdim etməsi və sakit bir tərzdə uğurlar diləməsi bütün həqiqətləri ilə göstərir kimin kim, nəyin nə olduğunu...

Zənnimcə, erməni hökuməti bu çirkin addımın üstünü ört-basdır etmək üçün min bir bahanələrlə dünya mediasına açıqlama verəcək. Və iddia edəcək ki, guya, bütün bu təxribatlar ölkə rəhbərliyinin gözündən kənarda baş verən hadisələrdir. Lakin tarixi Azərbaycan torpaqlarını – Qarabağı tərk edərkən varidatlarını – unitazlarını gözlərindən qırağa qoymayan bu murdar toplumun belə bir fikir irəli sürməsi, dünyanın şahid olduğu faktı görməməsi, yəqin ki, hər kəsdə ikrah dolu gülüş doğurar. Ancaq həqiqət budur ki, bütün soyqırımı cinayətləri, ya da ölkənin atributlarına qarşı törədilən çirkin əməllərin hər biri şüurlu və əvvəlcədən düşünülmüş olur. Bu əməllər heç bir halda təsadüf və ya ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Burada hərəkətin mənfi nəticələri ilə bağlı cinayətkar qərəzin və ya konkret niyyətin xüsusi istiqamətini üzə çıxarmaq tələb olunur. Yarışa başlamazdan əvvəl ermənilərin milli atributlarımıza qarşı belə bir addım atması onların əsl niyyətini ortaya qoyur. Bu amansız cinayətlərin məhz Azərbaycanın milli heysiyyatına qarşı yönəldiyi də göz önündədir.

...Erməni vandalları tərəfindən dəfələrlə xalqımızın milli-mənəvi dəyərlərinə qarşı bu cür faşizm hadisələri baş verib. Dövlətimiz bu addımlara cavabı ya döyüş meydanında bu əfi ilanların başını əzməklə verib, ya da böyük qətiyyətlə siyasi arenada öz nüfuzunu qaldırmaqla, gücünü göstərməklə onları yerinə oturdub. Ermənilər bütün bu nəticələrdən dərs çıxarmalı olsalar da, yenə də öz hikkə və məkrlərinə sadiq qalaraq tutduqları bu dırnaqarası yoldan dönməyiblər. Yeri gəlib Vətənimizin igid oğulları – Mübariz İbrahimov kimi qəhrəmanları bütün bir erməni batalyonunun canına üşütmə salıb, yeri gəlib Pəncəli Teymurov kimi igidlərimiz öz hərbçilik məharəti ilə düşmən təxribatlarının qarşısını alıb, onlara əsl hünərvərlik örnəyi göstərib və yeri gəlib ki, Ramil Səfərov kimi oğullarımız sırf milli dəyərlərimizə əl uzadıb, dil çıxarıb deyə sonu ömürlük həbs olsa da, erməni vandalını tikə-tikə edib, yeri gəlib ki, Cəbrayıl Dövlətzadə kimi elin qəhrəman övladı Polad Həşimovun qisasını əlbəyaxa döyüşdə alıb, öz əlləri ilə erməni polkovnikini boğaraq cəhənnəmə vasil edib. Nə qədər ki bu xalqın canında-qanında Azərbaycançılıq, türkçülük var, heç zaman düşmənə boyun əyməz, əqidəsindən dönməz, bir ölüb min dirilər. Üçrəngli bayrağı Şuşa qalasında, Suqovuşanda, Füzulidə, Ağdərədə, Ağdamda, Kəlbəcərdə, Laçında dalğalandırar və gün gələr, ağızdolusu deyərik ki, Təbriz Azərbaycandır, İrəvan Azərbaycandır!

*...Bütün bu məqalədə erməni daşnaklarının törətdiyi cinayətlərdən yalnız biri haqqında danışdıq, əgər iş onların tarixboyu törətdiyi vandallıqlara, terror aktlarına qalsa, o hadisələrin qarşısında yazmaq da acizidir, elə tarixin reallıqları da...Yazıma dahi rus şairinin ermənilər haqqında dediyi fikirlə başlamışdım. Sonluğunu isə məşhur ingilis səyyahı Vilsonun sözləri ilə qurtarmaq istəyirəm: "Ermənilər acgöz və tamahkardır. Onlar istənilən bir cəfəngiyyatı böyütməkdə ürzə abırsız dərəcədə mahirdirlər və yalnız bunları özlərindən başqalarına edirlər".*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Naxçıvanda İrandan Türkiyəyə gedən yük maşınında külli miqdarda narkotik vasitə aşkarlanıb



Naxçıvanda külli miqdarda narkotik vasitə aşkar edilib. Naxçıvan Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən Şahtaxtı dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycandan tranzit keçməklə İran İslam Respublikasından Türkiyə Respublikasına gedən yük nəqliyyat vasitəsindən, ümumilikdə, təqribi çəkisi 71 kiloqram 800 qram narkotik vasitə – heroin aşkar edilib.

Faktla bağlı araşdırmalara başlanılıb.

**Xəbərlər şöbəsi**

## Antidopinqlə bağlı tədbirlər reallaşıb

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) nümayəndələri tərəfindən Antidopinq Təbliğat Proqramı çərçivəsində Naxçıvan şəhərində məşqçi və idmançılar üçün maarifləndirici tədbirlər həyata keçirilib.



Agentliyin təmsilçiləri əvvəlcə "Heydər Əliyev İli" ilə əlaqədar yeniyetmələr arasında sərbəst güləş üzrə muxtar respublika birinciliyinin reallaşdığı məkan – İlham Əliyev adına Olimpiya İdman Kompleksində quraşdırdıqları stend vasitəsilə maarifləndirici missiyalarını həyata keçiriblər.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı və nazir müavini Məcid Seyidov AMADA-nın təbliğat stendi ilə tanış olub, prosesin icrası ilə maraqlanıblar. Bu sahədəki gələcək perspektivlər müzakirə edilib.

Günün ikinci yarısında "Qoy ədalət zəfər çalsın!" şüarı ilə maarifləndirici seminar təşkil olunub.

Tədbir zamanı AMADA-nın təhsil şöbəsinin müdiri Lalə Hacıyeva tərəfindən iştirakçılara dopinq nəzarəti prosesi, qadağan edilmiş siyahı və antidopinq qaydaları haqqında ətraflı məlumat verilib. Maarifləndirici bukletlər paylanılıb. Sual-cavab sessiyasında idmançılar antidopinq sahəsindəki biliklərini sınayıblar. Fərqlənən iştirakçılara hədiyyələr paylanılıb.

## Yeniyetmə güləşçilərin muxtar respublika birinciliyi



İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Heydər Əliyev İli" ilə əlaqədar yeniyetmələr arasında sərbəst güləş üzrə muxtar respublika birinciliyi keçirilib. Yarışda 11 çəki dərəcəsi üzrə 101 idmançı iştirak edib. Nəticələrə əsasən Ələkbər Əsgərov (32 kiloqram), Elxan Muradov (35 kiloqram), Fuad Rzayev (38 kiloqram), Məhəmməd Hümbətov (41 kiloqram), Dəniz Məmmədli (44 kiloqram), Tuqay Qəhrəmanlı (48 kiloqram), Sadiq Kərimov (52 kiloqram), Hüseyn Rəcəbli (57 kiloqram), Tayson Xudadanov (62 kiloqram), Murad Həsənəliyev (68 kiloqram), Murad Həsənov (75 kiloqram) öz çəki dərəcələrində birinci yerə layiq görülüblər.

İlk üç yerin sahibləri diplom, medal və hədiyyələrlə mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, nazir müavini Məcid Seyidov və Güləş Federasiyasının sədri, Əməkdar məşqçi Faiq İsgəndərov təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şahbuz rayonunun Kükü kəndində yaşayan İbadov Qurban Nəsrulla oğlunun adına verilmiş 01.06.2021-ci il tarixli, A 0110579 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qarabağlar kənd sakini Tağıyev Ələğa Tağı oğlunun adına olan JN-712^A inventar nömrəli 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 279